# İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ





# AZEXPORT.AZ

MADE IN AZERBAIJAN

## İXRAC İCMALI

2017-ci il / Noyabr №8



www.iqtisadiislahat.org
info@ereforms.org




## "Qeyri-neft sektorunda bu il çox ciddi islahatlar aparılıb və ixracımız da kəskin artıb, doqquz ayın nəticələri çox müsbətdir"

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş yubiley mərasimindəki nitqindən**

*"İqtisadiyyatın şaxələndirilməsi istiqamətində bundan sonra da ardıcıl siyasət aparılacaq. Bu siyasət öz nəticələrini verir. Bu gün neftdən asılılıq azalır. Ancaq onu da bilməliyik ki, neft-qaz sektoru bundan sonra uzun illər ərzində iqtisadiyyatımızın aparıcı qüvvəsi olacaqdır. Qeyri-neft sektorunda bu il çox ciddi islahatlar aparılıb və ixracımız da kəskin artıb, doqquz ayın nəticələri çox müsbətdir. Kənd təsərrüfatı, qeyri-neft sektoru, qeyri-neft sənayesi sürətlə artır. Bizim valyuta ehtiyatlarımız artır, növbəti illərdə də artmalıdır. Valyuta ehtiyatlarımız bu ilin doqquz ayında 4,5 milyard dollar artıbdır. Neftin qiymətinin aşağı səviyyədə olmasını nəzərə alsaq, bu, çox böyük nailiyyətdir. Bu nailiyyət, eyni zamanda, onu göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir. Bir çox ölkələr üçün bizim maliyyə vəziyyətimiz əlçatmazdır. Təkcə onu demək kifayətdir ki, xarici dövlət borcumuz 20 faizin altındadır və valyuta ehtiyatlarımız ümumi daxili məhsula bərabərdir. Ona görə növbəti illərdə iqtisadi sahədə, regional inkişaf sahəsində, əlbəttə, islahatlar dərinləşəcək və bu, bizə imkan verəcək ki, qeyri-neft sektoru hesabına daha da böyük mənfəət əldə edək".*

# MÜNDƏRİCAT


SƏHİFƏ 4

**Qeyri-neft sektoru üzrə ixrac**

2017-ci ilin 10 ayında qeyri-neft sektoru üzrə1 milyard 219 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

SƏHİFƏ 8

**Reytinq**

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərinin reytinqi

SƏHİFƏ 10

**AZEXPORT.AZ**

Azexport.az portalına 2017-ci ilin 10 ayında 397.3 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur

SƏHİFƏ 14

**AZEXPORT.AZ**

- Azexport.az portalı sahibkarlara yeni xidmət təklif edir
- İxrac missiyamız Şanxayda uğurlu nəticələr əldə etmişdir

SƏHİFƏ 16

**İxrac missiyası və Memorandum**

- Azərbaycanın ixrac missiyası Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində olmuşdur
- Şərq Tərəfdaşlığı Mərkəzi ilə İİTKM arasında memorandum imzalanmışdır

SƏHİFƏ 17

**Bazar araşdırması**

Kənd Təsərrüfatı Nazirliyi zəfəranın dünya bazarlarına ixracı imkanlarını araşdırmışdır

SƏHİFƏ 20

**Sərgi**

“Made in Azerbaijan” vahid ölkə stendi Çində maraqla qarşılanmışdır

# Qeyri-neft sektoru üzrə ixraca dair məlumat

## 2017-ci ilin 10 ayında qeyri-neft sektoru üzrə 1 milyard 219 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixrac davamlı olaraq artmaqdadır. Belə ki, cari ilin 10 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 1 milyard 219 milyon ABŞ dolları həcmində olmuş və bu ixrac əməliyyatlarında 1723 subyekt iştirak etmişdir. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017- ci ilin 10 ayında qeyri-neft sektoru üzrə ixrac 23 faizdən çox artmışdır. Cari ilin 10 ayı ərzində qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında Rusiya liderliyi qorumuşdur. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2017-ci ilin 10 ayı ərzində bu ölkəyə 424 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur. Növbəti yerləri isə Türkiyə (243 milyon ABŞ dolları), İsveçrə (115 milyon ABŞ dolları), Gürcüstan (108 milyon ABŞ dolları) və Türkmənistan (48 milyon ABŞ dolları) bölüşür.

2017-ci ilin 10 ayı ərzində ixrac edilən qeyri-neft sektoru məhsulları arasında pomidor (tomat) birinci (131.5 milyon ABŞ dolları), qızıl ikinci (98.5 milyon ABŞ dolları), qabığı təmizlənmiş meşə fındığı isə üçüncü (88.6 milyon ABŞ dolları) yeri tutmuşdur.

Ümumiyyətlə isə 10 ay ərzində meyvə-tərəvəz ixracı 375 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 98 milyon, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 80.7 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 67.2 milyon, kimya sənayesi məhsullarının ixracı 65.5 milyon ABŞ dolları təşkil etmişdir.

### 2017-ci ilin 10 ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi




**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## 2017-ci ilin 10 ayında qeyri-neft sektoru üzrə 1 milyard 219 milyon ABŞ dolları dəyərində ixrac olmuşdur

Qeyd edək ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 10 ayı ərzində elektrik enerjisinin ixracı 90 faiz, çayın ixracı 68 faiz, meyvə-tərəvəzin ixracı 39 faiz, kimya sənayesi məhsullarının ixracı 30 faiz, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 3 faiz artmışdır.

Cari ilin oktyabr ayında isə qeyri-neft sektoru üzrə 475 subyekt tərəfindən 149.6 milyon ABŞ dolları dəyərində ixrac əməliyyatları həyata keçirilmişdir.

Oktyabr ayı üzrə ixrac olunan əsas mallar qabığı təmizlənmiş meşə fındığı, xurma, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), alma, xiyar və kornişonlar, metanol (metil spirti), alüminium ərintilərindən qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, tomat, aşqarlanmamış alüminiumdan qalınlığı 0,2 mm-dən çox olan düzbucaqlı plitələr, ağ şəkər, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, qara metallardan neft-qaz buruqlarının qazılması üçün qaynaq yeri olmayan digər nasos-kompressor boruları, kimyəvi toxuculuq materiallarından böyük tutumlu elastik keçid konteynerləri, dəmirdən və ya aşqarlanmamış poladdan isti yayılmış digər burulmuş çubuqlar, qara metallardan xarici diametri 406,4 mm-dən çox olan digər qaynaq edilmiş borular və s. olmuşdur. Oktyabr ayında qabığı təmizlənmiş meşə fındığının ixracının dəyəri 26.6 milyon ABŞ dolları, xurmanın ixracının dəyəri 21.6 milyon ABŞ dolları, qızılın ixracının dəyəri 17.2 milyon ABŞ dolları təşkil etmişdir.

Ötən ayda qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında birincilik Rusiyaya məxsus olmuşdur. Sonrakı yerlərdə isə Türkiyə, İsveçrə, İtaliya, Gürcüstan və digər ölkələr qərarlaşmışlar.

2017-ci ilin 10 ayı ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrammalarda verilmişdir.

## 2017-ci ilin oktyabr ayında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi




**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## 2017-ci ilin 10 ayında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı (Dəyəri milyon ABŞ dolları ilə)

01. Tomat - 131.5
02. Qızıl - 98.5
03. Fındıq ləpəsi - 88.6
04. İlkin formalı polietilen - 59.5
05. Elektrik enerjisi - 37.3
06. Şəkər - 36.4
07. Alüminium ərintilərindən plitələr - 35.7
08. Metanol (metil spirti) - 35.7
09. Xurma - 30.2
10. Pambıq lifi - 27.2
11. Digər yağlar və məhsulları - 26.7
12. Kartof - 25.8
13. Albalı və gilas - 23.2
14. Polad yarımfabrikatlar - 22.6
15. Nasos-kompressor boruları - 22.4
16. Emal olunmamış aşqarlanmamış alüminium - 21.8
17. Emal olunmamış alüminium ərintiləri - 20.5
18. Alma - 20.3
19. Aşqarlanmamış alüminiumdan plitələr - 19.1
20. Mis filizləri və konsentratları - 18.7

İxrac

**Qeyd:** *İnfoqrammada 2017-ci ilin 10 ayı ərzində ixrac edilən 20 əsas məhsulla bağlı məlumat yer almışdır. Lakin həmin dövrdə bu məhsullardan əlavə, qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

## 2017-ci ilin oktyabr ayında ixrac olunan əsas qeyri-neft mallarının siyahısı (Dəyəri milyon ABŞ dolları ilə)



| | | | |
|---|---|---|---|
| **Fındıq ləpəsi** 26.6 | **Xiyar və kornişonlar** 5.2 | **Şəkər** 2.5 | **Elastik keçid konteynerləri** 1.3 |
| **Xurma** 21.6 | **Metanol (metil spirti)** 5.1 | **İlkin formalı polietilen** 2.4 | **Dəmirdən və ya aşqarlanmamış poladdan çubuqlar** 1.3 |
| **Qızıl** 17.2 | **Alüminium ərintilərindən plitələr** 4.3 | **Emal olunmamış alüminium ərintiləri** 2.4 | **Qara metallardan borular** 1.3 |
| **Sair təzə meyvələr** 5.8 | **Tomat** 2.7 | **Digər yağlar və məhsullar** 2.4 | **Emal olunmamış aşqarlanmamış alüminium** 1.3 |
| **Alma** 5.2 | **Aşqarlanmamış alüminiumdan plitələr** 2.7 | **Nasos-kompressor boruları** 1.8 | **Misdən digər yivli məmulatlar** 1.1 |

**Qeyd:** *İnfoqrammada 2017-ci ilin oktyabr ayında ixrac edilən 20 əsas məhsulla bağlı məlumat yer almışdır. Lakin oktyabr ayında bu məhsullardan əlavə, qeyri-neft sektoru üzrə yüzlərlə məhsul ixrac olunmuşdur.*

**Mənbə:** *Dövlət Gömrük Komitəsi*

# Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərinin reytinqi

2017-ci ilin 10 ayında qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında 1723 subyekt iştirak etmişdir. "İxrac icmalı" tərəfindən qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərinin reytinqi tərtib edilmişdir.

Qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin və fiziki şəxslərin siyahısında ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Baku Steel Company" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Sun Food" MMC, "MKT İstehsalat Kommersiya" MMC, Talıbov Zabil Ocaqverdi oğlu, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "VN Food Export Import Company" MMC, "CTS-Agro" MMC və "Food Export Şəmkir" MMC təmsil olunur.

Qeyd edək ki, ötən ayla müqayisədə

## Qeyri-neft sektoru üzrə ilk onluqda təmsil olunan qeyri-dövlət ixracatçı şirkətlərin və fiziki şəxslərin reytinqi

01 "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi – 65.6 milyon ABŞ dolları

02 "Baku Steel Company" MMC – 50.9 milyon ABŞ dolları

03 "Azərbaycan Şəkər İstehsalatBirliyi" MMC – 37.2 milyon ABŞ dolları

04 "Sun Food" MMC –22.9 milyon ABŞ dolları

05 "MKT İstehsalat Kommersiya" MMC – 22.3 milyon ABŞ dolları

06 Talıbov Zabil Ocaqverdi oğlu - 16.6 milyon ABŞ dolları

07 "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC – 14.9 milyon ABŞ dolları

08 "VN Food Export Import Company" MMC – 14.7 milyon ABŞ dolları

09 "CTS-Agro" MMC – 14.2 milyon ABŞ dolları

10 "Food Export Şəmkir" MMC – 12.8 milyon ABŞ dolları

oktyabr ayında bir şirkət - “VN Food Export Import Company” MMC qeyri-dövlət ixracatçı subyeklərin siyahısında ilk onluğa daxil olmağı bacarmışdır.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə ilk onluqda ARDNŞ-in “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi”, “Det-al Alüminium” MMC, “Azergold” QSC, “Azərenerji” ASC, “SOCAR Methanol” MMC, “Ərzaq Məhsullarının Tədarükü və Təchizatı” ASC, ARDNŞ-in “Geofizika və Geologiya İdarəsi”, “Suraxanı Maşınqayırma Zavodu Törəmə” ASC, “Naxçıvan MR Dövlət Energetika Agentliyi” və “Azərbaycan Dəmir Yolları” QSC təmsil olunurlar.

Qeyd edək ki, ötən ayla müqayisədə oktyabr ayında “SOCAR Methanol” MMC və “Naxçıvan MR Dövlət Energetika Agentliyi” dövlətə məxsus ixracatçı subyeklərin siyahısında öz mövqeyini möhkəmləndirmişdir.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrammalardan tanış ola bilərsiniz.

## Qeyri-neft sektoru üzrə ilk onluqda təmsil olunan dövlətə məxsus ixracatçı şirkətlərin reytinqi



# Azexport.az portalına 2017-ci ilin 10 ayında 397.3 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur

## Cari ilin oktyabr ayındakı ixrac sifarişlərinin dəyəri isə 41.5 milyon ABŞ dolları təşkil etmişdir

2017-ci ilin 10 ayı ərzində Azexport.az portalına dünyanın 66 ölkəsindən 397.3 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. Azexport.az portalına 2017-ci ilin oktyabr ayında daxil olan ixrac sifarişlərinin dəyəri isə 41.5 milyon ABŞ dolları təşkil etmişdir.

Portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (19.2 %) ilə yanaşı, Türkiyənin (6%), Ukraynanın (5.7%), Hindistanın (4.8%) və ABŞ-ın (4.2%) adı vardır. Oktyabr ayında İsrail, Myanma kimi yeni ölkələrdən ixrac sifarişi daxil olmuşdur.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olub ki, oktyabr ayında ən çox ixrac sifarişi - nar şirəsi, konservləşdirilmiş tərəvəzlər, kosmetik vasitələr, şərab, alma, armud, nar, xurma, pomidor, sarımsaq, kələm, çay, qənnadı məhsulları, günəş paneli, tütün, biyan kökü, meyvə qurusu, ipək xalça, cemlər, boya, tibbi spirt, şəkər tozu və s. - müxtəlif mallara daxil olmuşdur. Oktyabr ayında Rusiyadan daxil olan sifarişlərdə artım müşahidə olunmuşdur.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrammalarda verilmişdir.

### Azexport.az portalına 2017-ci ilin 10 ayında daxil olan ixrac sifarişlərinin dəyəri




Mənbə: *Azexport.az*

## 2017-ci ilin sentyabr ayında Azexport.az portalına ixrac sifarişi daxil olan mallar




**Mənbə:** *Azexport.az*

**Qeyd:** *Oktyabr ayında infoqrammada yer alan məhsullardan əlavə qeyri-neft sektorunda istehsal edilən digər məhsullara da Azexport.az internet portalı vasitəsilə ixrac sifarişləri daxil olmuşdur. Xüsusən də oktyabr ayında Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsulları ilə yanaşı, sənaye məhsullarına da sifarişlərin artdığı müşahidə olunmuşdur.*

## Azexport.az portalına 2017-ci ilin 10 ayı ərzində daxil olan ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü (faizlə)

| | |
|---|---|
| Rusiya | 19.2 |
| İtaliya | 2.4 |
| Pakistan | 2.1 |
| Liviya | 1.8 |
| Kanada | 1.2 |
| Toqo | 0.9 |
| Türkiyə | 6.0 |
| İran | 2.4 |
| Nigeriya | 2.1 |
| Misir | 1.5 |
| Bolqarstan | 1.2 |
| Avstraliya | 0.9 |
| Ukrayna | 5.7 |
| Rumıniya | 0.9 |
| Hindistan | 4.8 |
| Fransa | 0.9 |
| ABŞ | 4.2 |
| Özbəkistan | 0.9 |
| Qazaxıstan | 4.2 |
| Əfqanstan | 0.9 |
| İraq | 3.6 |
| Polşa | 2.1 |
| Benin | 1.8 |
| İngiltərə | 1.2 |
| Yaponiya | 1.2 |
| Qətər | 0.9 |
| Səudiyyə Ərəbistanı | 3.6 |
| Çin | 2.1 |
| Gürcüstan | 1.8 |
| Almaniya | 1.2 |
| Hollandiya | 1.2 |
| Litva | 0.6 |




**Mənbə:** *Azexport.az*

# Rusiyadan ixrac sifarişi daxil olan əsas Azərbaycan məhsulları

Azexport.az portalına 2017-ci ilin 10 ayı ərzində ən çox ixrac sifariş Rusiya Federasiyasından daxil olmuşdur. Rusiyadan daxil olan ixrac sifarişlərinin strukturuna baxanda aydın olur ki, bu ölkədə Azərbaycanda istehsal edilən qeyri-neft sektoruna aid müxtəlif mallara (alma, albalı, tibbi tənzif, yerkökü, mahlıc, çay, müxtəlif cemlər, konyak, şərab, fındıq ləpəsi, pambıq yağı, meyvə şirəsi, göbələk, pomidor, badımcan, sarımsaq, mebel dəsti, nar, meyvə qurusu, qənandı məmulatları, nar şirəsi, konservləşdirilmiş tərəvəzlər, kələm, şəkər tozu, kosmetik vasitələr və s.) tələbat böyükdür.




## “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə Rusiyaya, Türkiyəyə, BƏƏ-yə və digər ölkələrə ixrac reallaşdırılmışdır

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə dünya bazarlarına ixrac artmaqdadır. Belə ki, “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə Rusiya Federasiyasına, BƏƏ-yə və Türkiyə Cümhuriyyətinə 277 min ABŞ dolları dəyərində müxtəlif növ məhsullar ixrac olunmuşdur. Məhsullar arasında xurma üstünlük təşkil edir. “Ərzaq Məhsullarının Tədarükü və Təchizatı” ASC və digər fiziki və hüquqi şəxslər tərəfindən ümumilikdə 57 min ABŞ dolları dəyərində xurma Rusiya Federasiyasına və BƏƏ-yə ixrac edilmişdir. “El-Metal” şirkəti tərəfindən ümumi dəyəri 220 min ABŞdolları olan polad pəstah Türkiyə Cümhuriyyətinə ixrac olunmuşdur. Həmçinin “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə Gürcüstan (dini ədəbiyyat), Qətər (xalça) və digər ölkələrə də ixrac reallaşdırılmışdır.

# Azexport portalı sahibkarlara yeni xidmət təklif edir

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalı sahibkarlara yeni xidmət növünü təqdim edir. Belə ki, www.azexport.az portalı dövlət və özəl satınalmaları portallarından on minlərlə elanlar arasında ən uyğununu seçərək onları Azərbaycan sahibkarlarına təqdim edir. Sahibkarlar artıq aydın şəkildə müxtəlif ölkələrdə elan olunan tenderlər və sifarişləri görə bilər və onlardan yararlana bilərlər. Eyni zamanda portal bu cür tenderlərdə iştirakla bağlı müvafiq dəstək verəcəkdir.

Azexport.az portalının rəhbəri Zaur Qardaşov bildirmişdir ki, belə bir bölümün yaradılmasında məqsəd Azərbaycanın məhsul və xidmətlərinin xarici ölkələrdə mövcud böyük dövlət və özəl satınalmalarına çıxışını təmin etməkdir. Hazırda bir çox ölkələrdə satınalmalar tamamilə elektron qaydada keçirildiyi üçün bu cür inteqrasiya mümkün olmuşdur. Bir çox hallarda tenderlərdə iştirak haqqı tələb olunmasa da, bu cür portallarda qeydiyyat üçün elektron imza, zəmanət sənədləri, illik ödəniş və digər tələblər vardır ki, bu prosedurların bir hissəsini dövlət öz üzərinə götürərək sahibkara əlavə dəstək ola bilər. Hesablamalar göstərir ki, Azərbaycan sahibkarları məhsullarını birbaşa tenderlər vasitəsilə satmaqla 30-40% əlavə gəlir və davamlı müştərilər əldə edə bilərlər. Eyni zamanda, bu cür platformalara çıxış, bir sıra ənənəvi və yeni sahələrin (məsələn maşınqayırma, İT xidmətləri, tikinti xidmətləri və s.) ixrac imkanlarını xeyli artıra bilər.




# İxrac missiyamız Şanxayda uğurlu nəticələr əldə etmişdir

Azərbaycanın növbəti ixrac missiyası Çin Xalq Respublikasının Şanxay şəhərində reallaşdırılmışdır. "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə təşkil olunmuş ixrac missiyasına şərab və spirtli içkilər istehsalı sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri daxil olmuşlar. 15 noyabr tarixinədək davam edən ixrac missiyası çərçivəsində bir sıra uğurlu nəticələr əldə edilmişdir.

Belə ki, səfərin ilk günü - noyabrın 13-də Azərbaycanın ixrac missiyası Çinin ilk və ən böyük ticarət zonası olan "Shanghai Waigaoqiao Free Trade Zone"da yerləşən Şanxay Vayqaoçao




Beynəlxalq Ticarət Əməliyyat Mərkəzində (ITOC) olmuş və burada görüş keçirmişdir. Mərkəzin giriş qapısındakı elektron tabloda "Şanxay



Azərbaycan şərablarını salamlayır" sözlərinin qeyd edilməsi Çinin Azərbaycan məhsullarına olan böyük marağından xəbər verirmişdir. Qeyd edək ki, bu mərkəzin idxal-ixrac həcmi 10 milyardlarla ABŞ dolları olaraq qiymətləndirilir.

Azərbaycanın Çindəki Səfirliyinin dəstəyi, AZPROMO və ölkəmizin Çindəki Ticarət Nümayəndəliyi tərəfindən birgə təşkil olunmuş görüşdə AZPROMO-nun vitse-prezidenti Yusif Abdullayev Azərbaycanın biznes mühiti, rəqabətqabiliyyətli və ixracyönümlü məhsullarımız, ixrac missiyamızda təmsil olunan şirkətin təmsilçisi Elmar Saidov isə Azərbaycan şərabları barədə məlumat vermişlər. ITOC-un baş direktoru He Guoguang mərkəzin fəaliyyəti, Şanxay Pudonq Spirtli İçkilər Assosiasiyasının rəhbəri Baohua Huang isə 117 idxalçı şirkətin üzv olduğu Assosiasiyanın fəaliyyətinə dair məlumat vermişdir. Baohua Huang bildirmişdir ki, Azərbaycan şərablarının idxalı Assosiasiyaya üzv şirkətlərin diqqətinə çatdırılacaq və bu sahədə əməkdaşlıq həyata keçiriləcəkdir.

Görüş çərçivəsində AZPROMO və ITOC arasında əməkdaşlığa dair Memorandum imzalanmışdır. Memoranduma əsasən, AZPROMO İTOC-dan anbar və yerli məhsullarımızın nümayiş olunması üçün müvafiq yer icarəyə götürəcəkdir. Azərbaycan Şərab Evi adlanacaq həmin sahə və burada Azərbaycan iş adamları üçün yaradılacaq əlverişli şərait sahibkarlarımıza yerli məhsulları yüksək səviyyədə təqdim etməyə imkan verəcəkdir.

ITOC həmçinin, "Direct İmported Goods" ("DİG") adlı marketlər şəbəkəsinə sahibdir. Bu marketlərin əsas xüsusiyyəti ondan ibarətdir ki, burada yalnız idxal olunmuş xarici məhsullar yüksək qiymətə satılır. Növbəti mərhələdə Azərbaycan məhsullarının "DİG" marketlər şəbəkəsində satılması da nəzərdə tutulur.

Görüş zamanı ITOC nümayəndələri Azərbaycan iş adamlarına öz məhsullarını azad ticarət zonasına gələn qonaqlara nümayiş etdirmək üçün lazımi şərait yaratmışlar. Azərbaycan məhsulları ITOC ziyarətçiləri tərəfindən maraqla qarşılanmışdır. Bu marağı və diqqəti nəzərə alan ITOC Azərbaycan məhsullarının bir hissəsini satın almışdır.

Görüş çərçivəsində həmçinin, Azərbaycanın şərab istehsalçıları və ixracatçıları bir sıra ikitərəfli görüşlər keçirilmiş, ITOC-un anbarlarında və "DİG" marketlər şəbəkəsi, həmçinin 16 ölkənin birgə yaratdığı pavilyonla tanış olmuş, Azərbaycan Şərab Evi konsepsiyasına dair fikir mübadiləsi aparmışlar.

Azərbaycan ixrac missiyasının Şanxaya səfəri Çin mediası tərəfindən geniş işıqlandırılmış, AZPROMO-nun vitse-prezidenti Yusif Abdullayev və ölkəmizin Çindəki Ticarət Nümayəndəsi Teymur Nadiroğlu yerli kanallara müsahibələr vermişlər. Müsahibələrdə Prezident İlham Əliyevin "Made in Azerbaijan" brendinin təbliği




ilə bağlı Fərmanın icrası istiqamətində görülən işlər Çin mediasının diqqətinə çatdırılmışdır.

Daha sonra Azərbaycanın ixrac missiyası "ProWeine China 2017" Sərgisini ziyarət etmiş, yerli istehsalçılar və sərgidə iştirak edən digər xarici ölkələrin nümayəndələri ilə görüşlər keçirmiş, Şanxayın bir sıra marketlərində olmuşlar.

# Azərbaycanın ixrac missiyası Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində olmuşdur

Azərbaycanın növbəti ixrac missiyası Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində olmuşdur. "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə təşkil olunmuş ixrac missiyasına Azərbaycanda meyvə şirələri, təbii mineral sular, meyvə-tərəvəz məhsulları, konservləşdirilmiş qida, dondurma istehsalı və digər sahələrdə fəaliyyət göstərən 18 şirkətin nümayəndəsi daxil olmuşdur.





Missiya çərçivəsində Azərbaycan iş adamları AZPROMO və Azərbaycanın Rusiyadakı Ticarət Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Sankt-Peterburq şəhərində keçirilən "Peterfood" qida sərgisi çərçivəsində təşkil olunan XVII Peterburq Ərzaq Forumunda iştirak etmişlər. Forumda 2017-ci və 2018-ci illər üçün pərakəndə ticarətin başlıca istiqamətləri, bu sahədə proqnozlar və tendensiyalar, istehlakçıları cəlb etmək üçün yeni strategiyalara dair müzakirələr aparılmış və iş adamları üçün master-klass keçirilmişdir.

Tədbir çərçivəsində missiya iştirakçıları üçün Rusiyanın Şimal Qərb regionunun iri marketlər şəbəkələri ilə ikitərəfli görüşlər də təşkil olunmuşdur. "X5 Retail Group", "Aşan", "Maqnit", "Diksi" və "Metro" kimi iri marketlər şəbəkələrinin və yerli distributor şirkətlərin nümayəndələrinin iştirak etdiyi görüşlərdə Azərbaycan şirkətləri öz məhsullarını da təqdim etmişlər.

İxrac missiyası noyabrın 16-na qədər davam etmişdir.

# Şərq Tərəfdaşlığı Mərkəzi ilə İİTKM arasında memorandum imzalanmışdır

Estoniyanın paytaxtı Tallin şəhərində Şərq Tərəfdaşlığı Mərkəzi ilə Azərbaycan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi arasında qarşılıqlı anlaşma memorandumu imzalanmışdır. Memorandumun əsas məqsədi Prezident İlham Əliyevin 2017-ci il 22 fevral tarixli Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycanın mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərmanından irəli gələn məsələlərin təmin edilməsinə töhfə verməkdən ibarətdir. Xüsusi ilə Estoniyanın Avropa İttifaqında prezidentliyi dövründə belə bir müqavilənin imzalanması bu təşkilatla Azərbaycan arasında rəqəmsal iqtisadiyyatın inkişafına öz töhfəsini verəcəkdir.



Azərbaycan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı anlaşma memorandumunun imzalanması ilə bağlı bildirmişdir ki, Estoniyanın Şərq Tərəfdaşlığı Mərkəzi ilə Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının inkişafı üzrə birgə fəaliyyət planının işlənməsi haqqında razılığa gəlinmişdir. O əlavə etmişdir ki, bu fəaliyyət planında Avropa İttifaqı, Avrasiya İttifaqı, Körfəz ölkələri, Çin, GUAM formatı çərçivəsində Rəqəmsal Ticarət Qovşağının inkişafı ilə bağlı görüləcək işlər nəzərdə tutulmuşdur. Vüsal Qasımlı vurğulamışdır ki, hazırda Avropa İttifaqının strukturları, xüsusən də qurumun indi prezidenti olan Estoniya hököməti Rəqəmsal Ticarət Qovşağının inkişafına xüsusi maraq göstərir.




İmzalanma mərasimindən sonra Estoniyanın Şərq Tərəfdaşlığı Mərkəzinin rəhbəri Jaan Reinhold bildirmişdir ki, Azərbaycan Şərq tərəfdaşlığı ölkələrinə rəqəmsal iqtisadiyyatın inkişafı nöqteyi-nəzərindən bir nümunə ola bilər. Xüsusən Azərbaycan Rəqəmsal Ticarət Qovşağının, Azexport.az internet portalının nümunəsini Şərq Tərəfdaşlığı ölkələri arasında yaymaq məqsədəuyğundur. Jaan Reinholdun qənaətinə görə Azərbaycan Avrasiyanın mərkəzində əgər əvvəllər nəqliyyat, logistika, enerji layihələrinin qovşağına çevrilmişdisə, indi də rəqəmsal iqtisadiyyatın qovşağına çevrilmə imkanlarına malikdir.

# Kənd Təsərrüfatı Nazirliyi zəfəranın dünya bazarlarına ixracı imkanlarını araşdırmışdır

Kənd Təsərrüfatı Nazirliyinin “İcmallaşdırma və statistik təhlil” şöbəsi tərəfindən Azərbaycanda zəfəran istehsalı və onun dünya bazarlarına ixracı imkanları ilə bağlı araşdırma aparılmışdır. İranın Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən 2015-2016-cı illərdə 95,0 min hektar sahədə zəfəran əkilib. 2017-ci məhsul ili üçün istehsal həcminin 400 ton olması gözlənilir. Son bir neçə il ərzində Əfqanıstanda zəfəran istehsalının genişləndirilməsi məqsədi ilə beynəlxaq təşkilaltlar bu ölkəyə texniki yardım göstərir.

Azərbaycanda da zəfəran istehsalının artırılması potensialı var. Ölkəmizdə 1 hektar ərazidə zəfəran becərilməsi üçün 2-2,5 ton soğanaq tələb olunur. Bir kiloqram soğanağın qiyməti isə təxminən 5 manatdır. Deməli, 1 hektar zəfəran yetişdirmək üçün təkcə toxum xərci 10 – 12,5 min manat təşkil edir.

Araşdırmada göstərilir ki, Azərbaycanda 1 il ərzində 1 hektar zəfəran sahəsindən 2-2.5 kq məhsul əldə etmək mümkündür. Bu isə o deməkdir ki, zəfəran becərən sahibkara ilk olaraq 15 min manata yaxın kapital lazımıdır. Lakin o ilk

2 il ərzində zəfəran yetişdirməklə bağlı xərclərini çıxara və növbəti 3 il ərzində böyük məbləğdə mənfəət əldə edə bilər.

Araşdırmada əsas zəfəran idxal edən ölkələrlə bağlı da məlumat verilmişdir. Göstərilmişdir ki, 2016-cı ildə İspaniya 53,0 milyon dollar dəyərində zəfəran idxal edib, bu isə dünya idxalının dəyər ifadəsində 25%-ni təşkil edir. İspaniya İrandan aldığı xammal məhsulu qablaşdıraraq, öz brendi adı altında dünya bazarına ixrac edir. Ən iri ixracatçı İran 2016-cı ildə 246.7 milyon ABŞ dolları dəyərində 172 ton məhsul ixrac edilib. İxrac olunan 1 kq məhsulun orta dəyəri 1500 ABŞ dollarıdır. Əsas ixrac istiqamətləri Birləşmiş Ərəb Əmirlikləri, İspaniya, Səudiyyə Ərəbistanı, Fransa, İtaliyadır. 2016-cı ildə digər əsas ixracatçılara İspaniya (77 ton), Hindistan (33 ton), Əfqanıstan (10 ton) aiddir.

Araşdırmadan göstərilir ki, zəfəran bazarına azad rəqabət hökm sürdüyündən, mənşəyindən və keyfiyyətindən asılı olaraq, 1 kq zəfəranın topdansatış qiyməti 2-5 min ABŞ dolları arasıdır.

## Dünyada əsas zəfəran istehsal edən ölkələr



# Zəfəran üzrə potensial ixrac bazarları

| Ölkələr | İdxal olunmuş məhsulun həcmi, ton | | | | |
|---|---|---|---|---|---|
| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
| **Fars Körfəzi ölkələri** | | | | | |
| Birləşmiş Ərəb Əmirlikləri | 138 | 149 | 317 | 181 | 97 |
| Səudiyyə Ərəbistanı | 43 | 29 | 27 | 30 | 23 |
| Qətər | | 20 | 37 | 34 | 16 |
| Oman | 8 | 17 | 41 | 10 | 11 |
| Bəhreyn | 9 | 9 | 5 | 4 | 5 |
| **Avropa ölkələri** | | | | | |
| İspaniya | 82 | 83 | 46 | 50 | 217 |
| Çexiya | 26 | 34 | 45 | 52 | 48 |
| Fransa | 33 | 29 | 45 | 43 | 31 |
| Niderland | 226 | 54 | 28 | 7 | 28 |
| İtaliya | 88 | 32 | 27 | 14 | 18 |
| İsveçrə | 9 | 11 | 12 | 9 | 9 |
| **Digər ölkələr** | | | | | |
| ABŞ | 26 | 28 | 35 | 38 | 42 |
| Honq Konq, Çin | 8 | 9 | 6 | 7 | 30 |
| Cənubi Afrika | 31 | 7 | 3 | 2 | 20 |
| Taypey, Çin | 55 | 42 | 23 | 23 | 10 |
| Hindistan | 5 | 5 | 8 | 6 | 9 |

Son illər isə zəfəran üzrə alqı-satqı əməliyyatları onlayn formalarda aparılmağa başlamışdır.

Araşdırmada göstərilir ki, hazırda dünyada əsas zəfəran istehsal edən ölkələr aşağıdakılardı: Məsələn, www.tradekey.com və ya www.alibaba.com portallarında müxtəlif ölkələrdə idxalatçı fərdi şəxslər və şirkətlər tərəfindən zəfəran sifarişi ilə bağlı elanlar yerləşdirilmişdir. Qeyd edək ki, Azexport.az portalı da www.tradekey.com və ya www.alibaba.com portallarına inteqrasiya olunmuşdur. Azərbaycanın zəfəran istehsalçıları Azexport.az portalına məhsullarını yerləşdirməklə dünya bazarına çıxa bilərlər.

# “Made in Azerbaijan” vahid ölkə stendi Çində maraqla qarşılanmışdır



Azərbaycan şərabları ilk dəfə olaraq “Made in Azerbaijan” vahid ölkə stendi ilə Çin Xalq Respublikasının Honqkonq Xüsusi İnzibati Ərazisində keçirilən 10-cu Beynəlxalq Şərab və Spirtli İçkilər Sərgisində nümayiş olunmuşdur. Asiya qitəsində müvafiq sahə üzrə ən böyük sərgi hesab olunan Beynəlxalq Şərab və Spirtli İçkilər Sərgisinə bu il Azərbaycan da daxil olmaqla, 38 ölkədən 1070 iştirakçı qatılmışdır.

9-11 noyabr tarixlərində keçirilən sərgidə ölkəmizdən AZPROMO, Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası, eləcə də şərab istehsalı və ixracı ilə məşğul olan 12 şirkətin nümayəndəsi qatılmışdır. Sərginin keçirildiyi müddətdə Honqkonq Beynəlxalq Sərgi və Konqres Mərkəzində Azərbaycan şərablarının təbliği məqsədilə müxtəlif tanıtım plakatları asılmışdır.

Azərbaycan şərabları, şampanlar, meyvə və otlardan hazırlanmış spirtli içkilər xüsusi dizaynda hazırlanmış, 126 kvadratmetrlik “Made in Azerbaijan” vahid ölkə stendində nümayiş olunmuşdur. Pavilyonumuzda rəqabətqabiliyyətli və ixracyönümlü Azərbaycan şərabları nümayiş olunmaqla yanaşı, sərgi ziyarətçilərinə ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti, istehsal olunan təbii və keyfiyyətli məhsullar barədə məlumat verilmiş, çap materialları təqdim edilmişdir. Azərbaycan şərabları sərginin təşkilat komitəsinin üzvləri, ziyarətçilər, alıcılar və media nümayəndələri tərəfindən maraqla qarşılanmışdır.

Sərginin açılış mərasimindəki çıxışlarında Honqkonq Ticarət və İnkişaf Şurasının və Sərgi Mərkəzinin rəhbəri Marqaret Fonq Azərbaycanın ilk dəfə olaraq bu sərgidə vahid ölkə stendi ilə təmsil olunduğunu vurğulamış, AZPROMO-nun vitse-prezidenti Yusif Abdullayev isə yerli məhsullarımız və stendimiz barədə məlumat vermişdir. Sonra iştirakçı ölkələrin nümayəndə heyətləri Azərbaycanın vahid ölkə stendi ilə tanış olmuş, stendimizə şərab alıcılarının xüsusi turu təşkil edilmişdir. Açılış mərasimi çərçivəsində keçirilmiş müsabiqənin qaliblərinə hədiyyə olaraq Azərbaycan şərabları da təqdim edilmişdir.

Sərgi çərçivəsində Azərbaycan iş adamları potensial müştərilərlə əməkdaşlıq imkanlarına dair müzakirələr aparmış, şərab istehsalında tətbiq olunan yeni texnologiyalarla tanış olmuşlar. Bundan başqa, sərgidə iştirak edən Azərbaycan şirkətlərinin nümayəndələri yerli bazarı araşdırmaq məqsədi ilə müxtəlif marketlərdə olmuşlar.

Qeyd edək ki, Azərbaycan məhsullarının təqdim olunduğu sayca 5-ci vahid ölkə stendi Azərbaycan Respublikası Prezidentinin “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqi ilə bağlı Fərmanına uyğun olaraq təşkil edilmişdir. Vahid ölkə stendinin təşkili xərcləri dövlət tərəfindən qarşılanır.



# İXRAC İCMALI



## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ


## Bizimlə əlaqə

(+994)12 5213318

info@ereforms.org

Bakı şəhəri, Yasamal rayonu, L.Landau küçəsi, 16

/iqtisadiislahat